**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ**

**YEVLAX GÖMRÜK İDARƏSİ**

**SƏRƏNCAM № 157/013**

**Yevlax şəhəri** "26" fevral 2018-ci il

**"Gömrük xidməti ilə biznes subyektlərinin nümayəndələrindən ibarət İctimai Şuralar haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Dövlət Gömrük Komitəsinin 100/197 saylı 21 noyabr 2016-cı il tarixli Sərəncamının icrası ilə əlaqədar olaraq**

**ƏMR EDİRƏM:**

1. Gömrük qanunvericiliyini tələblərinin, o cümlədən xarici əlaqələr iştirakçılarının beynəlxalq ticarət sahəsində öhdəliklərinin yerinə yetirilməsinin təmin edilməsi, qanunvericiliyə edilmiş dəyişikliklərin izah və şərh edilməsi, qaldırılan məsələlərlə bağlı müzakirələr aparılması və bununla da gömrük xidməti ilə biznes subyektləri arasında əməkdaşlığın genişləndirilməsi məqsədi ilə Yevlax Gömrük İdarəsində gömrük orqanlarının və müxtəlif sahələr üzrə sahibkarlıq subyektlərinin nümayəndələrindən ibarət aşağıdakı tərkibdə İctimai Şura yaradılsın.

| | |
|---|---|
| İctimai Şuranın Sədri | Nazim İsayev<br>Rəis müavini |
| İctimai Şuranın Katibi | Nurlan Nuriyev<br>Yük şöbəsinin rəisi |

Üzvləri:

| | |
|---|---|
| Fazil Quliyev | GHQMŞ-nın rəisi |
| İlkin Hüseynzadə | MTŞ-nın böyük inspektoru |
| Emin Şükürov | FQB-nin böyük inspektoru |
| İlham Əliyev | "İlham – M" MMC-nin nümayəndəsi |
| Etibar Talıbov | "Laçın-2012" MMC-nin nümayəndəsi |

2. İctimai Şuralar öz fəaliyyətində Dövlət Gömrük Komitəsinin 100/197 saylı 21 noyabr 2016-cı il tarixli Sərəncamını əldə rəhbər tutsun.

3. İdarə üzrə verilmiş 157/018 saylı 24 may 2016-cı il tarixli Sərəncamı qüvvədən düşmüş hesab edilsin.

**Rəis müavini** N. İsayev **Nazim İsayev**

əməkdaşlığa və sahibkarların bu sahə üzrə maariflәndirilməsinin təmin edilməsi sahəsində arzu olunan nəticələrin əldə edilməsinə öz töhvəsini verəcək. Nurlan Nuriyev daha sonra Nazirlər Kabinentinin 2018-ci il 25 iyun tarixli 276 nömrəli qərarı ilə təsdiq edilmiş "Qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə ixrac təşviqinin ödənilməsi Qaydası"nın, "İxrac təşviqi şamil olunacaq qeyri-neft məhsullarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə Siyahısı"nın və "Məhsulların növündən asılı olaraq ixrac təşviqinin baza məbləğinə tətbiq olunacaq Əmsallar"ın təsdiq edilməsi haqqında, Azərbaycan Respublikasının Nazirlər Kabinentinin 2016-cı il 6 oktyabr tarixli 401 nömrəli qərarında dəyişikliklər edilməsi barədə söhbət açaraq, qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə ixrac təşviqinin ödənilməsi qaydalarından, ixrac təşviqi şamil olunacaq qeyri-neft məhsullarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə siyahısından, ixrac təşviqinin alınması üçün müraciət formasında nəzərdə tutulan sənədlərin siyahısı, ərizə və müraciət olunacaq dövlət orqanından geniş bəhs edərək sahibkarların diqqətinə çatdırdı.

Növbəti çıxış üçün söz alan GHQMŞ-nin rəisi Fazil Quliyev gömrük qanunvericiliyinin tələblərinə riayət edilməsindən, gömrük orqanlarının hüquqpozmalara qarşı mübarizəsindən, hüquqpozma faktlarından geniş söhbət açaraq bu sahədə görülən işlərin müsbət nəticəsinin xarici iqtisadi fəaliyyət iştirakçılarının fəaliyyətinə töhvə verəcəyinin əminliyini sahibkarların diqqətinə çatdırdı .

Daha sonra regionun fəal sahibkarlıq subyektlərindən biri, dəri emalı və ixracı ilə məşğul olan "Laçın-2012" şirkətinin nümayəndəsi Etibar Talıbov imzalanmış müvafiq sənədlərə və ondan irəli gələn məsələlərə münasibət bildirdi.O qeyd etdi ki,iqtisadiyyatın şah damarı olan biznes və sahibkarlıq subyeklərinin fəliyyətinə öz töhfəsini verəcək, dövlət-özəl sektor münasibətlərini tənzimləyəcək və şəffaflıq gətirəcək istənilən dəyişiklikləri alqışlayır və müvafiq memorndumlardan irəli gələn məsələlərin tətbiqində sahibkarlıq subyektləri kimi öz üzərimizə düşən vəzifələri yerinə yetirməyə hazırdırlar.

İclasın gedişində digər sahibkarlarla da İctimai Şurada müzakirəyə çıxarılmış məsələlər barədə fikir mübadiləsi davam etdirildi.

Qərara alındı:

Dövlət Gömrük Komitəsi ilə digər dövlət qurumları arasında imzalanmış anlaşma memorandumlarının, yaxın günlərdə həyata keçiriləcək "Tədbirlər Planı"nın tətbiqinin, Yevlax Gömrük İdarəsində müzakirə olunması və sahibkarlarla birgə qarşılıqlı fikir mübadiləsinin aparılması müsbət qiymətləndirilir.

**İctimai Şuranın Sədri** — **Nazim İsayev**

**İctimai Şuranın Katibi** — **Nurlan Nuriyev**